***ALİ MƏCLİSİN İCLASI***

*1 fevral 2024-cü il. Saat 11.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin*
*müavini **Anar İbrahimov** sədrlik edir.*

**Sədrlik edən.** Hörmətli deputatlar, hamınızı salamlayıram.

Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il yaz sessiyasının birinci iclası keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclasında 35 deputat iştirak edir.

| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
|---|---|
| İştirak edir | 35 |
| Yetərsay | 31 |

Bildiyiniz kimi Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinə görə azı 31 deputat parlamentin işində iştirak etməlidir. Buna görə də iclas öz işinə başlamağa səlahiyyətlidir.

Beləliklə, altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il yaz sessiyasını açıq elan edirəm.

*(Azərbaycan Respublikasının Dövlət Himni səslənir.)*

**Sədrlik edən.** Bildirmək istəyirəm ki, ötən il Ali Məclisin fəaliyyətinin qurulması istiqamətində mühüm işlər görülmüşdür. Muxtar respublikada həyata keçirilən tədbirlərin qanunvericilik səviyyəsində dəstəklənməsi üçün lazımi işlər görülüb və payız sessiyasının son iclasında ilin yekunları, həmçinin qanunvericilik fəaliyyəti barədə ətraflı məlumat verilmişdir. Əminəm ki, bu sessiyada da Ali Məclisin fəaliyyəti səmərəli olacaqdır.

Hörmətli deputatlar!

Yaz sessiyasında bizi çox işlər gözləyir. Bunların bəziləri haqqında qısa məlumat vermək istəyirəm. Bu sessiyada və il ərzində fəaliyyətimiz zamanı ən mühüm mövzulardan biri, heç şübhəsiz ki, Naxçıvan Muxtar Respublikasının 100 illiyi ilə bağlı tədbirlər olacaqdır. Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyev 2023-cü il dekabrın 30-da “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında” Sərəncam imzalamışdır. Ali Məclisin bununla bağlı xüsusi iclası keçiriləcək, həmçinin bu barədə deputatlara əlavə məlumat veriləcəkdir. Yubiley münasibətilə digər önəmli tədbirlərin təşkil edilməsi də nəzərdə tutulur.

Bu sessiyada qanun layihələrini müzakirə etməklə yanaşı, Konstitusiyanın tələbinə uyğun olaraq, Nazirlər Kabinetinin hesabatını dinləyəcəyik. İlkin olaraq hörmətli həmkarlarımın diqqətinə çatdırmaq istəyirəm ki, artıq Ali Məclis rəhbərliyi ilə hökumət arasında məsləhətləşmələrə görə bunun aprel ayının birinci ongünlüyündə baş tutması planlaşdırılır. Bildiyiniz kimi Azərbaycan Respublikasının Milli Məclisində bu, adətən mart ayında baş verir. Bundan əlavə, Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrası haqqında məsələ də müzakirəyə təqdim ediləcək. Həmçinin, sessiyada İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsmanın) illik hesabatı da dinləniləcək.

Keçən ilin payız sessiyasında da qeyd olunduğu kimi Ali Məclis ölkə parlamentində qanunvericilik təşəbbüsünün həyata keçirilməsi ilə bağlı bəzi təşəbbüsləri həyata keçirəcək. Bu haqda geniş müzakirə aparılmışdır. Xüsusilə də büdcə qanunvericiliyinin təkmilləşdirilməsi və digər bu tip məsələlər var. Zamanla deputatları bu prosesə cəlb edəcəyik. Məclisin funksionallığını artırmaq üçün bu təşəbbüslər fikrimcə vacibdir. Ümid edirəm ki, deputatlar, Ali Məclisin orqanları və Aparat bu işdə bizə ciddi dəstək verəcək.

Bir sözlə, Ali Məclisin yaz sessiyasının yüksək səviyyədə keçəcəyinə əminliyimi bildirir və deputat həmkarlarıma bir daha uğurlar arzulayıram.

İndi isə bugünkü iclasın gündəliyini diqqətinizə çatdırıram:

1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanunvericilik işləri planının təsdiqi.

2. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hesablayıcı komissiyasının yaradılması.

3. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam komissiyasının yaradılması.

Gündəliyə əlavəsi olan varsa xahiş edirəm münasibətini bildirsin.

Yoxdur.

Gündəliyə dair, eləcə də yaz sessiyası ilə bağlı çıxış etmək istəyən varsa xahiş edirəm münasibətini bildirsin.

Elman müəllim, istəyirsinizsə yerinizdən çıxış edin, ya da kürsüyə gələ bilərsiniz.

**E.Cəfərli,** *Ali Məclisin Humanitar siyasət komitəsinin sədri.*

Hörmətli Anar müəllim, hörmətli deputatlar!

Ölkəmiz son 3 ildə mühüm tarixi mərhələyə qədəm qoyub. Müstəqillik dövrü Azərbaycan dövlətçiliyinin ən böyük problemi olan ərazi bütövlüyü məsələsi Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin müstəsna uzaqgörən siyasi-diplomatik və hərbi-strateji fəaliyyəti nəticəsində uğurla həll olunmuş, xalqımız öz müasir tarixinin keyfiyyət və mahiyyətcə yeni mərhələsinə – şərti olaraq Zəfər tarixi adlandıra biləcəyimiz dövrünə qədəm qoymuşdur. Bu mərhələdə ölkəmizin və dövlətçiliyimizin qarşısında yeni çağırışların meydana çıxdığı, yeni milli hədəflərin dayandığı şübhəsizdir.

Tarixin bütün dövrlərində daim doğma Azərbaycanımızın siyasi-iqtisadi, sosial-mədəni, milli-mənəvi və coğrafi baxımdan üzvi hissəsi olmuş Naxçıvan diyarı da Azərbaycan dövləti adlanan bütöv tamın tərkib hissəsi olaraq, bu yeni çağırışlar mərhələsində özünün qürurlu günlərini yaşayır.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin doğulduğu torpaq adını daim qürurla daşıyan Naxçıvan özünün XX əsrin 70-80-ci illərdəki sosial-iqtisadi tərəqqisini, 1990-1993-cü illərdə düşmənin hərbi təcavüzündən xilas olunmasını, bölgənin Azərbaycan torpağı kimi qorunub saxlanılmasını və ən nəhayət, 1993-2003-cü illərdəki hərtərəfli inkişafını dahi Liderimizə borcludur. Ümummilli Liderimiz Heydər Əliyev deyirdi: "İstəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin". Bu gün əminliklə qeyd edirik ki, dahi şəxsiyyətin Naxçıvanla bağlı bütün planları, arzuları son 20 ildir ki, Azərbaycan Prezidenti hörmətli İlham Əliyev tərəfindən daim artan templə davam etdirilməkdədir. Naxçıvan Muxtar Respublikasının 80, 85 və 90 illik yubileylərində ölkə

başçısının şəxsən iştirak etməsi Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvana göstərilən yüksək diqqətin bariz ifadəsidir. Azərbaycan Prezidenti kimi 20 illlik fəaliyyəti dövründə cənab İlham Əliyev 16 dəfə Naxçıvan Muxtar Respublikasına səfər edib, bu səfərlər zamanı Onun iştirakı ilə 100-dən artıq təhsil, səhiyyə, idman və mədəniyyət müəssisələri, istehsal sahələri və hərbi təyinatlı obyektlər istifadəyə verilib. Dövlət başçısı tarixi Zəfərimizdən bir neçə ay sonra, 2021-ci il mayın 10-da, Ümummilli Liderin Zəfərdən sonrakı ilk doğum günündə Naxçıvana səfəri zamanı muxtar respublikanın ümumi inkişafını aşağıdakı fikirlərlə xarakterizə etmişdi: "Naxçıvan bizim əziz diyarımızdır, Heydər Əliyevin Vətənidir. Hər bir azərbaycanlı üçün əziz, doğma diyardır və Naxçıvanın inkişafı, çiçəklənməsi artıq reallıqdır. Bu reallığı biz özümüz yaratmışıq. Bu gün Ulu Öndərin xatirəsinə göstərilən ən böyük diqqət məhz özünü, bax, bu inkişafda təcəssüm etdirir".

Hörmətli Ali Məclis üzvləri!

Bir neçə gün sonra, fevralın 9-da Naxçıvan Muxtar Respublikasının yaranmasının 100-cü yubiley ildönümü tamam olur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu əlamətdar hadisənin dövlət səviyyəsində təntənəli şəkildə qeyd olunması məqsədilə 2023-cü il dekabrın 30-da "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncam imzalamışdır. Bu sərəncam bir tərəfdən dövlət başçımızın Naxçıvana növbəti diqqətinin ən yüksək səviyyədə təzahürüdür, digər tərəfdən isə Naxçıvan Muxtar Respublikasının hüquqi-siyasi statusuna verdiyi tarixi-siyasi qiymətdir. Bütün naxçıvanlılar bu sərəncamın verilməsindən böyük qürur hissi keçirirlər və cənab Prezidentə muxtariyyətin 100 illik yubileyinin qeyd edilməsi ilə bağlı bu yüksək diqqətə görə son dərəcə minnətdardırlar.

Bu sərəncam Naxçıvan diyarının tarixindəki əlamətdar hadisənin növbəti dəfə onun Azərbaycan torpağı kimi qorunub saxlanılmasına ən yüksək səviyyədə verilən siyasi qiymətdir. Bəllidir ki, dünyanın bütün siyasi muxtariyyətləri içərisində Naxçıvan Muxtar Respublikası yeganə muxtariyyətdir ki, onun yaranması birbaşa ermənilərin tarixi Azərbaycan torpağı olan Zəngəzurun qərb hissəsini işğal etməsi ilə ölkəmizin əsas hissəsi ilə Naxçıvan arasında yaranan coğrafi ayrılıqdan qaynaqlanmışdır. Təsadüfi deyildir ki, Ümummilli Lider Heydər Əliyev Naxçıvanın muxtariyyət qazanmasını dövlətçilik tariximizdə mühüm nailiyyət kimi qiymətləndirərək demişdir: "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük amildir. Biz bu amili qoruyub saxlamalıyıq".

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyim bu sərəncamı məhz bu amilə xidmət edən uzaqgörən addımdır. Hörmətli Prezidentimizin 2021-ci il iyunun 15-də qardaş Türkiyə Cümhuriyyətinin Prezidenti cənab Rəcəb Tayyip Ərdoğanla azad edilmiş torpaqlarda imzaladığı "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"ndə Naxçıvan Muxtar Respublikası ilə bağlı, o cümlədən Naxçıvana muxtariyyət statusunun verilməsində başlıca əhəmiyyət daşıyan 1921-ci il Qars müqaviləsi haqqında xüsusi müddəalar vardır. 2023-cü il sentyabrın 19-20-də Qarabağ iqtisadi rayonunda erməni faşist dəstələrinə qarşı keçirilən bir günlük lokal antiterror əməliyyatından, yəni Azərbaycanın özünün bütün ərazisi boyu tam suverenliyini və Konstitusiya quruluşunu bərpa etməsindən dərhal sonra, sentyabrın 25-də Azərbaycan və Türkiyə prezidentlərinin növbəti rəsmi görüşünün Naxçıvanda keçirilməsi də təsadüfi olmayıb, açıq və örtülü şəkildə mühüm mesajların verildiyi tarixi bir hadisə idi.

Cənab Prezidentin 2023-cü il iyunun 5-də imzaladığı "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"

muxtar respublikanın qarşıdakı yaxın illərdə hərtərəfli və sürətli inkişafı üçün çox mühüm sənəddir və bu Dövlət Proqramının imzalanması muxtariyyətin tarixində xüsusi bir hadisə kimi qiymətləndirilməlidir.

Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Əliyev haqqında danışdığımız sərəncamında Naxçıvanın Azərbaycan dövlətçiliyi tarixindəki yerinə və roluna böyük qiymət vermiş, Ulu Öndər Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb, muxtar respublikaya rəhbərlik etdiyi mərhələdə qəbul etdiyi qərarları xüsusi qeyd etmiş, 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Naxçıvanın igid övladlarının şanlı Zəfər salnaməmizə parlaq səhifələr yazdığını vurğulamışdır. Bu qiymətləndirmə, doğma Azərbaycanımızın dilbər guşələrindən biri olan Naxçıvana verilən dəyər kimi bizdə böyük ruh yüksəkliyinə səbəb olmuşdur.

Bütün bunları nəzərə alaraq, mən də fevralın 9-da həmin tarixi günün qeyd edilməsi ilə bağlı sizin etdiyiniz təklifi dəstəkləmək istəyirəm. Naxçıvan Muxtar Respublikasının yaranmasının 100-cü ildönümü tarixi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il yaz sessiyasının ilk günlərinə təsadüf edir. Buna görə də təklif edirəm ki, "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 dekabr tarixli Sərəncamını da nəzərə alaraq, muxtariyyətin yaranması günü ilə bağlı fevralın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin xüsusi iclası keçirilsin.

Bundan başqa, daha bir mühüm hadisə ilə bağlı fikirlərimi bildirmək istərdim. 2023-cü il dekabrın 7-də "Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2024-cü il fevralın 7-i seçkilər günü elan edilmişdir. Artıq seçki kampaniyasının böyük bir mərhələsi arxada qalmışdır. Seçkilərdə iştirak etmək üçün 7 namizəd qeydə alınmışdır. Seçkilərə sayılı günlər qalıb. Mən fürsətdən istifadə edərək, Ali Məclisdəki bu yüksək kürsüdən cəmiyyətimizdə böyük ruh yüksəkliyi ilə Zəfər seçkisi adlandırılan növbədənkənar prezident seçkilərində Naxçıvan Muxtar Respublikasında yaşayan seçiciləri fəal iştirak etməyə səsləyirəm. İnanıram ki, Naxçıvan Muxtar Respublikasının əhalisi həmişə olduğu kimi, bu dəfə də dövlət başçısı seçkilərində Azərbaycanın son 30 ildəki rifahı naminə göstərdiyi mövqeyi daha da yüksək səviyyədə təkrarlayacaqdır. Eyni zamanda əminəm ki, bu seçkilərdə qazanılan nəticələr 2020-ci ildəki böyük Zəfərin siyasi davamı və qarşıdakı illərdə Azərbaycan dövlətçiliyinin daha da inkişafı və ölkədə yüksək rifahın təmin edilməsində böyük bir stimul olacaqdır.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çıxışınıza və xatırlatmalara görə çox sağ olun, Elman müəllim. Təbii ki, seçki qarşıdan gələn ən mühüm tədbirlərdən biridir. Əminəm ki, muxtar respublika sakinləri də bu seçkidə iştirak edəcək, həmişəki kimi öz siyasi aktivliklərini göstərəcəklər.

Muxtariyyətin 100 illiyi ilə bağlı mövqeyinizə görə sizə minnətdaram. Bu heç kimə sirr deyil ki, Ali Məclisin yeni saytının yaradılmasında Elman müəllimin tədqiqat mövzularının biri də elə muxtariyyət idi, ondan xahiş etmişdik ki, bununla bağlı məqalələrin tərtibində köməklik etsin və o da bunu etmişdi. Təbii ki, qeyd etdiyiniz məsələ ilə bağlı xüsusi iclas olacaq, tarixini dəqiqləşdirib hörmətli deputatlarımıza çatdıracağıq. Təklif edirəm ki, Elman müəllimin həmin iclasda muxtariyyətin 100 illiyi ilə bağlı məruzəsi olsun və kürsüdən çıxış edəsiniz.

Bizim gündəlikdə 3 məsələmiz var idi. Bu üç məsələyə kiminsə əlavəsi yoxdursa həmin məsələləri səsə qoymaq istəyirəm.

Gündəliyinin bu qaydada qəbuluna kim tərəfdardırsa, xahiş edirəm səs versin.

| **Səsvermənin nəticələri** | (saat 11.16 dəq.) |
|---|---|
| Lehinə | 35 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs verədi | 0 |
| İştirak edir | 35 |
| Nəticə: Qəbul edildi | |

Gündəlik qəbul olundu.

İclasın iş qaydası məlumdur, vaxt itirmədən birbaşa gündəlikdəki məsələlərə keçək.

Hörmətli deputatlar!

Gündəlikdə duran birinci məsələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanunvericilik işləri planının təsdiq edilməsi barədədir.

Əvvəlki payız sessiyasında bu təcrübədən istifadə etmişdik və oradakı planı icra etmişdik. Qanunvericilik işləri planı mən bildiyim qədər Aparat tərəfindən hörmətli deputatlara çatdırılıb və tanış olmusunuz. Onu bir də oxumağa ehtiyac var? Yoxdur.

Bildiyiniz kimi, Ali Məclis fəaliyyətini qanunvericilik işləri planı əsasında qurur. Ali Məclisin Daxili Nizamnaməsinin 8-ci maddəsinə əsasən növbəti sessiyanın ilk iclasında biz bunu təsdiq etməliyik.

Qanunvericilik işləri planı ilə bağlı məsələni səsə qoyuram. Kim qanunvericilik işləri planının təklif olunan qaydada təsdiq olunmasına tərəfdardırsa xahiş edirəm münasibətini bildirsin.

| **Səsvermənin nəticələri** | (saat 11.18 dəq.) |
|---|---|
| Lehinə | 35 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 35 |
| Nəticə: Qəbul edildi | |

Beləliklə, Qərar  qəbul edildi.

Gündəlikdə duran ikinci məsələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hesablayıcı komissiyasının yaradılmasıdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 45.1-ci maddəsinə müvafiq olaraq 2024-cü il Ali Məclisin yaz sessiyasının birinci iclasında Hesablayıcı komissiya yaradılmalıdır. Ali Məclisin Daxili Nizamnaməsinin 45.2-ci maddəsinə əsasən Ali Məclisin Hesablayıcı komissiyası Ali Məclisin deputatları sırasından 1 il müddətinə 5 üzvdən ibarət tərkibdə seçilir.

Müzakirə olunan məsələ ilə əlaqədar qərar layihəsi hazırlanmışdır. Həmin qərar layihəsini diqqətinizə çatdırıram.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 45.1-ci maddəsinə əsasən qərara alır:

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hesablayıcı komissiyası aşağıdakı tərkibdə yaradılsın:

1. Babayev Əmir Baxşəli oğlu
2. Vəliyeva Günel Fəxrəddin qızı
3. Məmmədov İsa Mustafa oğlu
4. Məmmədli Turan Bəyməmməd qızı
5. İsmayılov Ehtibar Şəhrud oğlu

Deputatlardan kimin bu tərkiblə bağlı təklifi varsa, yaxud da özünü bu tərkibdə görmək istəyirsə xahiş edirəm münasibət bildirsin. Mən bu məsələni səsə qoyuram. Əlavə təklifi olan varmı? Komissiyada iştirak etmək istəyən? Yoxdur. Elə isə icazənizlə bu tərkibi mən səsə qoyuram.

Kim "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hesablayıcı komissiyasının yaradılması haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarının qəbul olunmasına tərəfdardırsa xahiş edirəm səs versin.

| **Səsvermənin nəticələri** | (saat 11.20 dəq.) |
|---|---|
| Lehinə | 35 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 35 |
| Nəticə: Qəbul edildi | |

Beləliklə, Qərar qəbul edildi.

Gündəlikdə duran üçüncü məsələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam komissiyasının yaradılması haqqındadır.

Ali Məclisin Daxili Nizamnaməsinin 46.1-ci maddəsinə əsasən 2024-cü il Ali Məclisin yaz sessiyasının birinci iclasında İntizam komissiyası yaradılır. İntizam komissiyası Ali Məclisin deputatları sırasından 1 il müddətinə 5 üzvdən ibarət tərkibdə seçilir.

Bununla əlaqədar qərar layihəsi hazırlanmışdır. Həmin qərar layihəsini diqqətinizə çatdırıram.

"Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam komissiyasının yaradılması haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 46.1-ci maddəsinə əsasən qərara alır:

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam komissiyası aşağıdakı tərkibdə yaradılsın:

1. Əliyeva Vüsalə Abazər qızı
2. Məmmədov Ehtimad Cəfər oğlu

3. Niftəliyev Hüseyn Əsrafil oğlu

4. Allahverdiyeva Aidə Məhərrəm qızı

5. Babayev Tofiq Süleyman oğlu

Deputatlardan kiminsə bu komissiyanın işində iştirak etmək arzusu varsa biz onu da müzakirə etməyə və ya tərkibə yenidən baxmağa hazırıq. Yoxdursa, mən qərar layihəsini səsə qoyuram.

Deputatlardan kim qərar layihəsi ilə razıdırsa xahiş edirəm səs versin.

| **Səsvermənin nəticələri** | (saat 11.22 dəq.) |
|---|---|
| Lehinə | 35 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 35 |
| Nəticə: Qəbul edildi | |

Beləliklə, Qərar qəbul edildi.

Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il yaz sessiyasının birinci iclası öz işini başa çatdırır. Yaz sessiyasında bir daha deputat həmkarlarıma, Ali Məclisin orqanlarına və Aparatına müvəffəqiyyətlər arzulayıram.

Sağ olun!